Shape the future with confidence

Fevral - Mart 2026-cı il

# Hüquq və vergi məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi



# Vergi və hüquq yenilikləri

Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- İnvestisiya Fəaliyyəti və Torpaqların Dövlət Ehtiyacları üçün Alınması haqqında Qanunlara Dəyişikliklər
- Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri haqqında Qanuna Dəyişikliklər
- Vergi Məcəlləsinə Dəyişikliklər
- Əmək Məcəlləsinə Dəyişikliklər
- İnzibati Cərimələrin Qaytarılması Qaydası
- Patent haqqında Qanuna Dəyişikliklər

## İnvestisiya Fəaliyyəti və Torpaqların Dövlət Ehtiyacları üçün Alınması haqqında Qanunlara Dəyişikliklər

*24 fevral 2026-cı il tarixində "İnvestisiya fəaliyyəti haqqında" Qanuna dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.*

Dəyişikliklər əsasən, investisiyalar yalnız dövlət ehtiyacları üçün deyil, həm də strateji əhəmiyyətə malik investisiyalara münasibətdə Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya Azərbaycan Respublikasının milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə investordan alına bilər. Qanuna əlavə edilən yeni müddəa belə halları ayrı-seçkilik kimi dəyərləndirmir. Kompensasiya isə investisiya müqaviləsi olduğu halda ona uyğun olaraq, olmadıqda isə ədalətli bazar dəyərinə uyğun ödənilir.

Dəyişikliklər 5 mart 2026-cı il tarixində qüvvəyə minmişdir.

Əlavə olaraq, 27 fevral 2026-cı il tarixində "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilmişdir.

Dəyişikliklərə əsasən, torpağın alınmasına əsas verən dövlət ehtiyacları siyahısı genişləndirilmiş və "dövlət mülkiyyətində olan hava limanlarının (aeroportların) və (və ya) aerodromların genişləndirilməsi və ya yeni hava limanlarının (aeroportların) və (və ya) aerodromların inşası" bəndi əlavə olunmuşdur.

Dəyişikliklər 13 mart 2026-cı il tarixində qüvvəyə minmişdir.

## Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri haqqında Qanuna Dəyişikliklər

*30 dekabr 2025-ci il tarixində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanuna dəyişikliklər ("**Dəyişikliklər**") edilmişdir.*

Dəyişikliklərə əsasən, kommersiya hüquqi şəxsləri, xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və ya filialları təqvim ili bitdikdən sonra növbəti ayın 31-dək təsis sənədlərində və qeydə alınmış faktlarda dəyişikliyin olub-olmaması barədə forması İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilən hesabatı kağız və ya elektron formada Dövlət Vergi Xidmətinə təqdim etməlidirlər.

Dəyişikliklər 9 fevral 2026-cı il tarixində qüvvəyə minmişdir.

## Vergi Məcəlləsinə Dəyişikliklər

*13 fevral 2026-cı il tarixində Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər ("**Dəyişikliklər**") edilmişdir.*

<u>Elektron ticarəti həyata keçirən qeyri-rezidentlərin vergi uçotuna alınmasına dair</u>

Dəyişikliklərə əsasən, internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən, elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən, alıcısı Azərbaycan Respublikasında vergi orqanlarında uçota alınmamış şəxslər olan qeyri-rezidentlərin (daimi nümayəndəliklər istisna olmaqla) məcburi və könüllü qaydada vergi uçotuna alınması qaydası müəyyən edilmişdir:

- Məcburi qaydada vergi uçotuna alınma: İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən, elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən və alıcısı Azərbaycan Respublikasında vergi orqanlarında uçota alınmamış şəxslər olan qeyri-rezidentlərin dövriyyəsi təqvim ili ərzində 10 000 ABŞ dollarının manat ekvivalentini keçdikdən sonra həmin şəxslər 30 gün müddətində elektron qaydada vergi uçotuna alınmalıdırlar.
- *Könüllü qaydada vergi uçotuna alınma:* Əgər qeyri-rezidentin dövriyyəsi 10 000 ABŞ dollarının manat ekvivalentindən aşağıdırsa, onun elektron qaydada vergi uçotuna alınması könüllü olaraq həyata keçirilir.

Bu Dəyişikliklərin məqsədi üçün aşağıda qeyd olunmuş xidmətlər elektron ticarət qaydasında təqdim edilən xidmətlərə aid edilmir:

- məsləhət, hüquq, maliyyə, mühasibat, dizayn və mühəndis xidmətlərinin elektron poçt və digər interaktiv ünsiyyət vasitələri ilə göstərilməsi;
- internet vasitəsilə real vaxt rejimində göstərilən tədris və təlim xidmətləri;
- elm, təhsil, mədəniyyət, idman və əyləncə tədbirləri üçün biletlərin onlayn sifariş edilməsi xidmətləri.

Elektron ticarət qaydasında fəaliyyət göstərən vergi ödəyicisi qeyri-rezident şəxslər ƏDV-ni hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın sonuncu günündən gec olmayaraq büdcəyə ödəməyə borcludur.

Vergi orqanlarında uçotda olmayan şəxslərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin (daimi nümayəndəliklər istisna olmaqla) elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması, ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Qeyd olunan Dəyişikliklər 23 avqust 2026-cı il tarixində qüvvəyə minir.

Dövlət orqanlarının uçot məlumatlarının təqdim olunması

- Dövlət orqanları (qurumları), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər vergi orqanında uçota alındıqda, yenidən təşkil edildikdə və ya uçotdan çıxarıldıqda bu barədə məlumatlar (vergi ödəyicisinin adı, VÖEN-i, hesabları göstərilməklə) hər ay bitdikdən sonra növbəti ayın 15-dək vergi orqanı tərəfindən elektron qaydada Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim olunur.

- Qeydiyyata alınan hesab yuxarıda qeyd olunmuş şəxslərə məxsus olduqda həmin hesablar barədə məlumatlar vergi orqanı tərəfindən müvafiq məlumat bank əməliyyatları aparan şəxslər tərəfindən vergi orqanına daxil olduğu gündən sonrakı bir iş günü müddətində elektron qaydada Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərilir.

Qeyd olunan Dəyişikliklər 1 aprel 2026-cı il tarixində qüvvəyə minmişdir.

## Əmək Məcəlləsinə Dəyişikliklər

*27 fevral 2026-cı il tarixində Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişikliklər (“**Dəyişikliklər**”) edilmişdir.*

Dəyişikliklərə əsasən, sosial sığorta nömrəsi əmək müqaviləsində mütləq qeyd olunmalı əsas şərtlər və məlumatlar siyahısından çıxarılmışdır. Müvafiq olaraq, artıq işəgötürənlərdən bu məlumatı əmək müqaviləsində əks etdirmək tələb olunmur.

Dəyişikliklər 1 iyul 2026-cı il tarixində qüvvəyə minəcəkdir.

## İnzibati Cərimələrin Qaytarılması Qaydası

*10 mart 2026-cı il tarixində "İnzibati cərimələrin qaytarılması Qaydası" ("Qaydalar") Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir.*

Qaydalar artıq ödənilmiş, düzgün tətbiq edilməmiş və ya səhv ödənilmiş inzibati cərimələrin (müvafiq olaraq hesablanmış dəbbə pulu daxil olmaqla) qaytarılması qaydasını müəyyən edir.

Bundan əlavə, Qaydalar artıq ödənilmiş, düzgün tətbiq edilməmiş və səhv ödənilmiş inzibati cərimələrin qaytarılması barədə ərizə və rəy formasını müəyyən edir.

Qaydalar həmçinin artıq ödəmənin qaytarılması halları və müddətlərini tənzimləyir.

Qaydalar 10 mart 2026-cı il tarixində qüvvəyə minmişdir.

## Patent haqqında Qanuna Dəyişikliklər

*10 fevral 2026-cı il tarixində "Patent haqqında" Qanuna dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("**Dəyişikliklər**") qəbul edilmişdir.*

Dəyişikliklərə əsasən, müəllifin (işçinin) xidməti vəzifəsinin həyata keçirilməsi və ya işəgötürənin yazılı tapşırığı ilə əlaqədar yaratdığı ixtira, faydalı model və sənaye nümunəsi ilə əlaqədar gəlirlərin bölüşdürülməsi qaydası tənzimlənmişdir. Belə ki, royalti şəklində əldə edilən gəlirdən ixtiraya, faydalı modelə və sənaye nümunəsinə patentin alınması və qüvvədə saxlanılması üçün işəgötürən tərəfindən həmin gəlirin əldə edildiyi tarixədək çəkilmiş xərclər çıxıldıqdan sonra qalan vəsaitin azı 50 faizi müəllifə (və ya müəlliflərə) ödənilir, digər hissəsi isə ixtira, faydalı model və ya sənaye nümunəsinin yaradıldığı işəgötürənin müvafiq struktur bölmələri arasında bölüşdürülür, habelə innovativ fəaliyyətin inkişafına yönəldilir.

İşəgötürən ixtira, faydalı model və ya sənaye nümunəsi üçün alınmış patentin qüvvədə saxlanılmaması barədə qərar qəbul etdikdə müəllif(lər) hüquqlarının özgəninkiləşdirilməsi haqqında müqavilə üzrə müstəsna hüququn ona verilməsini tələb edə bilər. Əgər müstəsna hüquqların verilməsi işəgötürənin xarici hüquqi və fiziki şəxslərlə bağladığı müqavilələr üzrə öhdəliklərini pozarsa, bu halda işəgötürən hüquqların verilməsindən imtina edə bilər.

Dəyişikliklər 31 mart 2026-cı il tarixində qüvvəyə minmişdir.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:



Arzu Hacıyeva
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com



Məmməd Balacanov
Direktor, Hüquq xidmətinin rəhbəri, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
mammad.balajanov@az.ey.com

EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilərə, əməkdaşlara, cəmiyyətə və planetimizə yeni faydalar təqdim etməklə və kapital bazarlarına inamı artırmaqla daha yaxşı iş dünyasını qurmağa çalışır.

Geniş məlumat bazası, süni intellekt və qabaqcıl texnologiyaların dəstəyi ilə əməkdaşlarımız müştərilərə gələcəyə inamla addımlamağa, bu günün və sabahın ən mühüm məsələlərinin həll yollarını tapmağa kömək edir.

EY şirkətinin mütəxəssisləri audit, konsaltinq, vergi, strategiya və əməliyyatlar daxil olmaqla fərqli sahələrdə çeşidli xidmətlər göstərirlər. Sənaye təcrübəsindən, qlobal miqyasda inteqrasiya olunmuş, multidissiplinar şəbəkədən və vahid ekosistemdə çalışan fərqli tərəfdaşlarımızın köməyindən faydalanaraq biz 150-dən çox ölkə və ərazilərdə xidmətlər təklif edirik.

Biz birlikdə gələcəyi formalaşdırmaq missiyamızı inamla yerinə yetiririk.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. EY firmaları yerli qanunlarla qadağan olunduğu ərazilərdə hüquq xidmətləri göstərmir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

© 2026-cı il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr yalnız məlumat məqsədilə hazırlanıb və uçot, vergi, hüquqi və ya digər peşəkar məsləhətin əvəzi kimi nəzərdə tutulmur. Konkret məsləhətlər almaq üçün məsləhətçilərə müraciət edin.

ey.com/az